# Azərbaycan-Türk musiqisi dünya xalqlarının mədəniyyət salnaməsində ən qədim tarixə malikdir

## *Sənətşünaslıq doktoru, professor Rafiq İMRANİ ilə müsahibə*



**Müsahibədən öncə qeyd edək ki, sənətşünaslıq doktoru, professor R.İmrani musiqi sahəsində analoqu olmayan və ilk dəfə nəşr olunmuş Azərbaycan Muğamlarının İnkişaf Tarixi (B. Oğuz, 1994), Azərbaycan Musiqi tarixi (Ən qədim dövrlərdən bizim eraya qədər) (B.Elm,1997), Muğam Tarixi (B. Elm, 1999), Muğam Fəlsəfəsi (Tehran-Təbriz. 2011) və başqa töhfələri ilə elmi ictimaiyyətdə tanınan əhli qələmdir. R.İmrani 1981-ci ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında müəllim, dosent, professor vəzifələrində, 2001-2004-cü illərdə Azərbaycan Milli Konservatoriyasının prorektoru, 2004-2013-cü illərdə AMEA-nın Folklor İnstitutunda şöbə müdiri vəzifələrində çalışmışdır. O, uzun illər Azərbaycan mətbuatında elmi-publisist məqalələri ilə Azərbaycan Radio və Televiziyası proqramlarında Muğam və Aşıq sənəti, folklorumuzla bağlı verilişlərdə öz çıxışları ilə sənətsevərlərin rəğbətini qazanmışdır. 2005-2011-ci illərdə ictimai fəaliyyəti zəminində “Nur” Ziyalılar Birliyinin sədri vəzifələrində çalışaraq Azərbaycanın tanınmış musiqiçi, rəssam, filoloq və digər sahələrin alimləri, sənət adamları ilə mütəmadi tədbirlər keçirmişdir. O, Ziyalılar Birliyinin sədri kimi AMEA-nın sabiq prezidenti, akademik M.K.Kərimov, vitse-prezidenti akademik Nailə Vəlixanlı və bir qrup alim və musiqi sənət adamları ilə birgə ulu öndər Heydər Əliyevin 85 illiyini Dərbənddə rəsmi qaydada yüksək səviyyədə keçirmişdir. Müsahibimizin Azərbaycanın və Türk Dünyasının qədim Musiqi tarixi, Muğam və Aşıq sənəti kimi möhtəşəm sənət janrları haqqında orijinal tədqiqatları vardır. R.İmraninin etnik mədəniyyətin, xüsusilə də musiqi mədəniyyətinin tarixinin öyrənilməsində yeni elmi sahənin - “Etnomuzopsixologiya” elminin yaranmasının zəruriliyi haqqında Türkiyə elmi dairələrindəki çıxışları diqqətimizi çəkdiyi üçün onunla müsahibə aparmaq qərarına gəldik.**

**Teymur ƏHMƏDOV.**

**—Rafiq müəllim, müsahibəyə keçməzdən əvvəl bəlkə özünüz haqda qısa məlumat verəsiniz? Oxucular Sizi soyadınıza görə İranlı kimi tanıyırlar, belədirsə bu haqda nə deyə bilərsiniz? (Rafiq müəllim gülə-gülə söhbətə başlayır və deyir):**

—Təbrizdə, Tehranda sənət və alim dostlarımız məni Bakılı Rafiq İmrani, Bakıda isə İranlı kimi bilirlər. Günlərin bir günü namizədlik dissertasiyamı oxuyub rəy verən Azərbaycanın və dünyanın görkəmli bəstəkarı, elmi rəhbərim Fikrət Əmirov evində mənim namizədlik dissertasiyam haqqında öz fikirlərini bildirərkən dissertasiyada doğma musiqimiz, milli musiqi mədəniyyətimiz, milli ənənə kimi ifadələri çox işlətdiyim üçün bala haralısan? - sualını verdi. Cavabında azərbaycanlıyam dedim. O, bir də baxdı üzümə və yenə eyni sualı təkrar etdi. Bu dəfə dedim ki, atam İrəvan doğumlu, anam Ermənistan, qardaşım Naxçıvan, bacılarım Təbriz, mən isə Bakı doğumluyuq. Haralı olduğumu deməyə özüm də çətinlik çəkirəm. Ona görə cavabında vallah azərbaycanlıyam deyəndə gülümsündü, sualı nəyə görə verdiyini izah etdi və dedi: Yazılarından görürəm ki, milli mədəniyyətə çox bağlısan və vətənpərvər gəncsən. Sən P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında müdafiə edəcəksən. Moskva milli, doğma və s. bu kimi ifadələrə qısqanclıqla yanaşır. Sən bu ifadələri dissertasiyada çox işlətmə, amma əsas fikrini ümumiləşdir de. Dissertasiyada düzəlişləri o deyən kimi etdim və 1988-ci ildə Moskva Konservatoriyasında müdafiə etdim.

Deyilən fikrə əlavə olaraq deyim ki, bizim soyadımız əslində İmrani yox, İbrahimovdur. İmrani soyadı 1938-1946-cı illərdə ailəmiz Təbrizdə yaşayarkən daşıdığımız soyadımızdır. Atam, əmim, əmim oğlu S.C.Pişəvərinin rəhbərliyi altında Təbrizdə “21-Azər Nehsəti” mədəni İnqilabı fədailərindən olmuşdur. Onlar Cənubi Azərbaycanda Demokratik Respublikanın qurulmasında S.C.Pişəvəri və digər rəhbər vəzifələrdə olmuş insanlarla çiyin-çiyinə çalışmışlar. Atam Hüseyn İbrahimov, əmim Həsən İbrahimovla İrəvanda iki-üç sinif aşağıda görkəmli dövlət xadimi Əziz Əliyevlə bir gimnaziyada oxumuşlar və yaxın əlaqələri olmuşdur. 1930-1938-ci illərdə atam Naxçıvanda orta məktəbdə və texnikumda dərs demişdir. Ulu öndər Heydər Əliyev Naxçıvanda ziyalılarla görüşü zamanı demişdir ki, biz məktəbdə oxuyarkən bizim Hüseyn İbrahimov adlı müəllimimiz olmuşdur. Akademiyanin müxbir üzvü, rəhmətlik Kərim Kərimovun dediyinə görə o, Adil Babayev, İslam Səfərli və mənim əmim oğlu Bağır İbrahimovla Naxçıvanda məktəbdə oxuyarkən ulu öndər Heydər Əliyev yaşca kiçik olduğu üçün iki sinif onlardan aşağı sinifdə oxumuşdur. O zaman atam onlara dərs demişdir. Bu fikri Heydər Əliyev cənabları akademik Mahmud Kərimovu AMEA-nın prezidenti təyin etməmişdən öncə onunla söhbətində də təsdiq etmişdir. Qohumlarımız arasında Naxçıvan və Ermənistandan olan Azərbaycan kökənli çoxlu ailələr var. Odur ki, deyə bilərəm ki, biz iranlı deyilik. Amma onu da demək istərdim ki, haralı olmağın o qədər də əhəmiyyəti yoxdur. İran Azərbaycanının, Azərbaycanın, Anadolunun və bütün Turan dünyasının hər qarış torpağı bizim vətəndir. Çünki bizlərin qədim soykökümüz Oğuzlara, Kumanlara, Qutilərə, Turukulara, Kimmerlərə və başqa Türk boylarına, nəhayət Ön Türklərə dayanır. Odur ki, harada doğulmağımızdan asılı olmayaraq biz Türk övladıyıq.

**—Rafiq müəllim, elmə necə gəldiniz?**

—Düzünü desək, gülə-gülə, dalaşa-dalaşa. Mən musiqiyə kamança ifaçısı kimi gəlmişəm və uzun illər Radio və Televiziya Dövlət Verilişləri Komitəsinin Əhməd Bakıxanov adına Xalq Çalğı alətləri ansamblında Azərbaycanın görkəmli sənətkarları ilə bərabər çalışmışam və əksər xanəndələrimizi onlarla bir yerdə müşayiət etmişik. Azərbaycan üçlüyü (tar, kamança, xanəndə-dəf) tərkibində Xalq artisti Həbib Bayramovla birlikdə Xalq artistləri; Əbülfət Əliyevi, Tükəzban xanım İsmayılovanı, Rübabə xanım Muradovanı və başqalarını müşayiət etmişik. Muğamlara və muğam nəzəriyyəsinə olan böyük marağım, Bəhram Mansurov kimi böyük sənətkarla, ailəsi ilə tanışlıq məni muğam tədqiqatına yönləndirdi. Həmçinin bizim dövrümüzdə Azərbaycan Musiqi Tarixi, Muğam kimi möhtəşəm sənət abidəsinin tarixi olmadığına görə bu sahələrdə tədqiqatlar aparmaq istəyimi gücləndirdi. Hələ 1976-cı ildə tələbə ikən hamı tar alətinin XIX əsrlə bağlı olduğunu iddia edərkən mən Baba Tahir Üryanın əsərləri əsasında elmdə ilk dəfə tar alətinin tarixinin X yüzilliklə bağlı olmasını yazdım. 1980-ci ildən etibarən isə elmi fəaliyyətə başladım və etiraf edim ki, 1980-ci illərdə Moskva Dövlət Konservatoriyasının alimləri ilə olan mütəmadi təmaslar mənim sonrakı elmi fəaliyyətimə çox müsbət təsir göstərdi. Yenə kiçik bir xatirə: Azərbaycanın çox görkəmli musiqişünası Elmira xanım Abbasovaya bir dəfə sualla müraciət etdim və dedim ki, Elmira xanım, niyə bizim musiqi tariximiz haqqında alimlərimiz “Rus Musiqi Tarixi” kimi üçcildli fundamental musiqi tariximizi yazmırlar. Onun əvəzinə hərə ayrı-ayrı məqalələr şəklində öz fikirlərini yazıb yaymışlar. O vaxt biz elmə yeni gəlirdik və bir Azərbaycan vətəndaşı kimi biz də milli musiqimizin tarixini mötəbər elmi ədəbiyyatdan öyrənmək istəyirdik. Axı xalq musiqiçisi kimi biz çox qədim muğam, aşıq, xalq yaradıcılığı örnəklərini (xalq mahnı və rəqslərini, musiqi folkloru nümunələrini, ritmik muğamları, şikəstələri və s.) gündəlik ifalarımızda çalırdıq və bu unikal sənət janrlarının toplum şəkildə niyə yazılmadığı istər-istəməz sual doğururdu. Elmira xanım cavabında dedi ki, bu çox çətindir. Bunu bacarıb yazan olarsa xalqımıza çox böyük xidmət etmiş olar. Bu söhbətdən sonra və görkəmli alim, müəllimimiz M.S.İsmayılovla Azərbaycan Xalq musiqisinin əsasları mövzusunda olan söhbətlərimiz bizi də bu sahədə gücümüzü sınamağa qərar verməyimizə sövq etdi. Elə o illərdən başlayaraq elmi fəaliyyətimi musiqi sənətinin çox çətin sahəsi olan Muğam janrının tarixi və elmi əsaslarının öyrənilməsi istiqamətinə yönəltdim. Çətinlik onda idi ki, Muğam janrı Şərqdə milli ənənələrdə klassik musiqi statusunu qazanmış musiqi janrı idi. Ərəblər onun ərəb, farslar fars, özbəklər özbək, taciklər tacik, hindlilər hind, uyqurlar uyqur, türklər türk, hətta ermənilər erməni milli ənənəsinə aid musiqi janrı olması iddiasında idilər. Bircə bizim bəzi musiqiçilərimiz və musiqişünaslarımız bu unikal sənət janrının bizə ərəblərdən-farslardan gəldiyi qənaətində idilər. Belə bir zamanda Xalq artistləri kimi tanınan sənətkarlarımızın fikrini dəyişib muğamların Azərbaycana məxsus olmasını söyləmək üçün güclü elmi arqumentlər ortaya çıxarmaq lazım idi. Çünki hər bir tanınmış muğam ifaçısı, musiqişünası öz bilik səviyyəsinə güvənərək onun muğamlar haqqında fikirlərinin aksioma olması qənaətində idilər. Ona görə mən sənətşünaslıq doktoru mövzumu “Azərbaycan muğamlarının tarixi və elmi-nəzəri əsasları” adında götürdüm. Onu da qeyd edim ki, bu adın elmi mövzu kimi götürülməsinə bir cox “alim” və bəstəkarlar uzun müddət mane oldular və mövzunun təsdiqinə nail olunandan sonra dissertasiyaya qarşı böyük kampaniya başladıldı. 4 il müdafiə yubadıldı. Buna baxmayaraq istəyimizə nail olduq. Ona görə elmə dalaşa-dalaşa gəldiyimi dilimə gətirdim. Muğamların tarixini yazmaq üçün bir çox elm sahələrini öyrənmək lazım gəlirdi. Bunların arasında riyaziyyat, ədəbiyyat, fizika, astronomiya, Şərq xalqlarının tarixini, musiqi mədəniyyətini, qədim və müasir musiqi nəzəriyyəsini, etnopsixologiyanı və s. elm sahələrini bilmək zəruri idi. Bu məqsədlə qeyd edilən elm sahələrini öyrənməyə başladım. Ondan sonra isə Türk xalqları ləhcələrini, sonra əski əlifbanı, fars, bir qədər də ərəb dilində oxumağı öyrənməyə başladım. Avropa dillərindən rus dilini səlis öyrəndikdən sonra fransız, ingilis və alman dillərində oxuyub lüğətlə tərcümələrə başladım. Beləliklə də 35 il ərzində gələcək tədqiqatlarım üçün lazım ola biləcək materialları topladım. İndi sevinirəm ki, muğamların, aşıq musiqisinin, Türk xalqlarının, Azərbaycanın musiqi tarixi və nəzəriyyəsi ilə bağlı çox zəngin kitabxanam var. Əmək fəaliyyətimin sonunda bütün boş vaxtlarımda elmi əsərlərim üzərində çalışıram. Və qismət olursa Elmira xanım Abbasovanın da, M.S.İsmayılovun da və mənim də arzum olan çoxcildli Musiqi tariximizi yazıb bitirməyi düşünürəm. Etiraf edim ki, artıq bir neçə cild hazır vəziyyətdədir.

**—Rafiq müəllim, elmi tədqiqat sahəsində nəşr olunan əsərləriniz barədə nə deyə bilərsiniz?**

—Mənim 200-dən cox elmi məqaləm var. Bu məqalələr əsasən Musiqi tariximizə, muğam nəzəriyyəsi problemlərinə həsr olunub. Bir sıra məqalələr də görkəmli musiqiçilərimizin yaradıcılığına aiddir. Azərbaycanda adları çəkilən kitablardan başqa “Baxram Mansurov” (rus dilində), xalq musiqisinin təsnifatına aid “Azərbaycan Xalq Musiqisinin Nəzəri Əsasları (II cild), İranda fars və əski əlifba ilə Azərbaycan dilində Muğam tarixi, Azərbaycan Musiqi tarixi əsərlərim çapdan çıxıb. Ondan əlavə 14 dərs vəsaiti (metodik) kitablarım, eyni zamanda Türkiyədə çap olunmuş elmi məqalələrim var. Türkiyədə 665 səhifəlik Muğam fəlsəfəsi əsərim Türk dilinə tərcümə olunur.

**—İnternetdə əsərləriniz yayınlanırmı?**

—Bəli, “Turuz” və İranın və “Google” saytlarında, əsərlərim yayınlanır. Bu yayınları muğamsevərlər özləri təşkil etmişlər. Mənim əsərlərim əsasında Türkiyədə Yüksək lisans diplomu və doktora tezləri də yazılmışdır. “Yootube”də televiziya verilişlərim yayınlanır və Türkiyədə elmi toplularda, beynəlxalq simpozium və konqrelərdə yayınlanmış məqalələrim ayrı-ayrı saytlarda yayınlanmaqdadır. Yayınlanan məqalələr arasında Şumer Musiqi mədəniyyəti və Avesta kitabəsində Azərbaycan heca vəznində olan şeir şəkilləri, onların qədim adları haqqında olan məlumatlar fikrimcə, daha maraqlıdır.

**—Rafiq müəllim, əvvəlki illərdə respublika mətbuatında Sizin imzanızla məqalələrə, elmi kitablara tez-tez rast gəlirdik və televiziyada görürdük. Son vaxtlar isə nədənsə görmürük və yazılarınızla da qarşılaşmırıq. Bunu nə ilə izah edə bilərsiniz?**

—Öncə onu deyim ki, yenə də oxucularımızı, xalqımızı sevindirəcək və dünya xalqları arasında Azərbaycan musiqi mədəniyyətinin daha qədim mədəniyyətə malik olmasını sübuta yetirən və xalqımızı daha da başıuca edə biləcək yeni elmi əsərlərlə qarşınıza çıxmağı planlaşdırmışam. Mən artıq neçə illərdir ki, doğma Türkiyədə çalışıram və buna görə sevimli oxucularımızla mütəmadi təmasda ola bilmirəm. Mən Türkiyədə bir cox Beynəlxalq Musiqi simpoziumlarına və Beynəlxalq Musiqi konqreslərinə başçılıq etdim. Elmi və pedaqoji fəaliyyətimi davam etdirirəm. Türkiyədə musiqişünaslıq sahəsində etnik mədəniyyətin tarixini və nəzəri əsaslarını daha asan yolla və dəqiq öyrənmək məqsədi ilə yeni elmi sahənin, “Etnomuzopsixologiya”nın yaradılmasının xüsusi əhəmiyyət kəsb etdiyinin zəruriliyini elmi mətbuatda yayınladım. Tədqiqatlarım üçün əldə etdiyim yeni materiallar Musiqi tariximiz, Muğam və Aşıq sənətimizin tarixi, instrumental musiqi tariximiz, o cümlədən musiqi nəzəriyyəmizin yenidən işlənərək tarixinin yazılmasına geniş imkanlar açdığı üçün bu sahələr yenidən işlənir. Hazırda əldə olan materiallara görə musiqi tariximizin başqa xalqlarla müqayisədə daha qədim dövrlərə dayandığını sübut etməyə geniş imkanlar var.

Bundan başqa yaradıcılığımda yeni bir sahəyə də başladım. Mən, Azərbaycanın korifey sənətkarları olan pianoçu Kökəb xanım Səfər-Əliyevaya və elmi rəhbərim olmuş Fikrət Əmirova ithaf etdiyim piano ilə simfonik orkestr üçün 3 hissəli “Şərq Konserti”, xor və violonçel üçün “Şərq-Qərb Ave Mariya”, iki orqan aləti üçün “İ.S.Bax və Bayatı Şiraz”, simfonik orkestr üçün “Çahargah simfonik muğam”, kamera orkestri üçün “Doğma Yurdum” və s. əsərləri yazdım. İnşallah yaxın gələcəkdə onları xalqımızın diqqətinə çatdıracağıq.

Elmi fəaliyyətə gəlincə isə onu demək istərdim ki, Azərbaycanda çalışan bir neçə elmi əməkdaşlarımızla birlikdə hər cildi 600 səhifə olan “Karapapak Türklərinin Tarixi, Etnoqrafisi və folkloru” adlı 4 cildlik fundamental bir əsəri çapa hazırladıq və indi o, Türk dilinə tərcümə prosesindədir. Karapapak türklərinin tarixi haqqında bu zamana kimi yazılmış kitab və məqalələrdən fərqli olaraq bu elmi-tədqiqat əsərində biz şumerlərin kim və hansı etnik mədəniyyət daşıyıcıları olmasını “Etnomuzopsixoloğiya” elmini tətbiq etməklə kəskinliklə sübuta yetirmişik. Ondan başqa mən söylədiyim kimi şəxsi yaradıcılığım sahəsində üzümüzə gələn illərdə bir çox yeni əsərlərlə oxucularımızı sevindirməyi planlaşdırmışam. Hər biri ən azı 600 səhifə olacaq “12 cildlik Azərbaycan Musiqi Tarixi” seriyasından aşağıdakı kitabları oxucularımıza təqdim etmək istəyirəm. Onu da qeyd edim ki, kitabların bir neçə cildi artıq hazırdır. Bunlar:

1. Musiqi Fəlsəfəsi əsəridir. Bu kitabda İnsan fəlsəfəsi və onun yaratmış olduğu musiqi fəlsəfəsinin bütün aspektləri öz əksini tapır. Musiqi tarixi, insanın həyatda var olması dövrü ilə bağlıdır. Ona görə də insan fəlsəfəsi və onun yaratmış olduğu musiqi fəlsəfəsi paralel olaraq öyrənilir.

2. Azərbaycan Musiqi Tarixi (Ən qədim dövrlərdən XX əsrə qədər). Bu əsərdə Azərbaycan musiqi mədəniyyətinin çox qədim dövrləri öz əksini tapır. Musiqi tariximizə giriş musiqi nəzəriyyəsinin bir sıra problemlərinin yeni elmi müstəvidə həlli ilə mümkün olmuşdur. Azərbaycan mədəniyyətinin Ön Türk mədəniyyəti ilə bağlılıq məsələlərinə də aydınlıq gətirilir. Eyni zamanda müasir tarixi kitablarımızda verilmiş faktlardan fərqli, yəni Azərbaycanda daha qədimilk dövlətçilik quruluşunun olması ənənələrinə və o dövrlərdə musiqi mədəniyyətinin inkişaf səviyyəsinə də aydınlıq gətirilir.

3. Azərbaycan Xalq Musiqisinin Nəzəri Əsasları. Bu əsər dahi sənətkarımız Ü.Hacıbəylinin əbədi xatirəsinə ithaf olunur. Tam yeni fərqli nəzəriyyədir. Hələ 1929-cu illərdə Azərbaycan xalq musiqi və muğam tədqiqatçısı V.Krivanosov, V.Belyayev və dahi bəstəkarımız Ü.Hacıbəyli öz əsərlərində görkəmli Azərbaycan musiqi nəzəriyyəçisi S.Urməvinin nəzəri sistemi təməlində Azərbaycan musiqisində yarım pərdədən kiçik pərdələrin olmasını da göstərmişlər. Biz Azərbaycan xalq musiqisinin və muğamların həm diatonik, həm pentatonik, həm də eharmonik səs sisteminin elmdə ilk dəfə olaraq lad nəzəriyyəsini oxucularımıza çatdırmağı qarşımıza bir məqsəd olaraq qoymuşuq.

4. Muğam-Makam tarixi. Yeni redaksiyada genişləndirilmiş variantda təqdim olunacaq. Oxucularımızın və muğamsevərlərimizin bu zamana kimi duymadıqları muğam adları ilə onları tanış edəcəyik. Müqayisə olaraq Azərbaycan muğamlarını Əl-İraq, Misir, Əlcəzair, Türk makamları, Uyqur, Orta Asiya, Hind mukam-makom və makamları ilə tanış etməyi planlaşdırmışıq.

5. Muğam Fəlsəfəsi. Bu əsərdə Azərbaycanda ilk not yazısının b.e. əvvəlki dövrə təsadüf etdiyini, orta əsrlərdə 7 musiqi janrının melodiyasının bərpasını yeni elmi metodla həyata keçirilməsinin mümkünlüyünü və s. başqa məsələləri göstərmək fikrindəyik.

6. Aşıq Sənəti tarixi əsərində Aşıq musiqisinin sumer dövrünə dayandığı faktları rəsmi qədim şəkillər, elmi sənədlər əsasında verilir. Şumer dönəmində Azərbaycan musiqi ladları onların Şumer dilində olan isimləri göstərilir.

7. Aşıq Sənəti Fəlsəfəsi. Bu kitabda aşıq sənətinin fəlsəfi aspektləri, Təsəvvüf fəlsəfəsi yer alır.

8. Azərbaycan İnstrumental Musiqi Tarixi. Bu əsər prof. S.Abdullayevaya ithaf olunur. Əsərdə ən qədim dövrlərdən müasir dövrümüzə qədər ümumi sayı 190 olan milli musiqi alətlərimiz haqqında məlumat verilir. Musiqi alətlərimizin etimologiyası, Türk dünyasına bağlılığı elmdə ilk dəfə olaraq göstərilir.

Muğamsevərlərə ilk dəfə olaraq 3 cilddən ibarət olan Muğam-Makam Ensiklopediyası kitabı təqdim olunacaq. Bu işdə mənimlə əməkdaşlıq edən mütəxəssislərə indidən təşəkkürümü bildirmək istərdim. Ümumi sayı 2000-dən çox olacaq bu əsərdə muğam sənəti ilə bağlı istənilən məlumatları, muğam adlarının etimologiyasını, not nümunələrini, audio lent yazılarını əldə etmək mümkün olacaqdır. Ensiklopediyanın aşağıdakı kimi çap olunması nəzərdə tutulub.

9. Muğam Ensiklopediyası I cild

10. Muğam Ensiklopediyası II cild

11. Muğam Ensiklopediyası III cild

12. Türk Dünyası Aşıq Ensiklopediyası. Bu kitabda Azərbaycan, İran, Qarapapaq, Türkiyə aşıqları haqqında toplanmış materiallar öz əksini tapacaq.

Onu da qeyd etmək istərdim ki, bu əsərlər sırf tarixi, elmi məqsədlərə xidmət edir. Əsərlər coğrafi məkanından asılı olmayaraq Bütöv Azərbaycan mədəni nailiyyətlərini əks etdirir. Müqayisə üçün qeyd edim ki, muğam, aşıq sənəti və digər xalq yaradıcılığı nümunələri Azərbaycan Respublikasında olduğu kimi İran Azərbaycanında da, Gürcüstanda da, vaxtı ilə Ermənistanda da, Dərbənddə də eyni şəkildə ifa olunub və olunur da. Anadolu bölgəsində yaşayan həmsoydaşlarımız aşıq sənətini, musiqi folkloru nümunələrini və s. eyni ilə hifz edib ifa edirlər. Yəni eyni milli mədəniyyət daşıyıcıları yaşadıqları coğrafi ərazidən asılı olmayaraq eyni, Azərbaycan etnik mədəniyyətini yaşadırlar. Bu baxımdan Azərbaycan musiqi tarixi oğuzların, kumanların, Bayat və s. Azərbaycanın qədim etnik mədəniyyətini yaşadan Türk etnoslarının yaşadığı ərazilər üzrə araşdırılmışdır. Əlbəttə, yeri gəlmişkən bir məsələni də demək istərdim. Ulu öndər Heydər Əliyevin dahiyanə və uzaqgörənliklə demiş olduğu “Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir” şüarı dillər əzbəri olaraq hər zaman söylənilir. Mən arzu edərdim ki, tarix, arxeologiya, filologiya, musiqişünaslıq və digər elmi sahələrdə Azərbaycan, Türkiyə alimləri öz tədqiqatlarında Azərbaycan, Türkiyə tarixinin, mədəniyyətinin də bir mənbədən ilham alaraq inkişaf etdiyini elmi əsaslarla ortaya çıxarsınlar. Yəni biz bir millət olmağımızı elmi əsaslarla da sübut edək. Bu sahədə bir neçə əsərlər yazılsa da bu olduqca azdır. Bu sahələrin araşdırılması üçün istənilən qədər elmi məxəzlər vardır. Yaxşı olardı ki, Azərbaycan-Türkiyə tarixini və mədəniyyətini ya Prezident Administrasiyasının Yanında Öyrənən Elmi Mərkəz, ya Heydər Əliyev Fondu nəzdində və ya AMEA-da xüsusi statusa və maddi resurslara malik İnstitut yaratmaqla həyata keçiriləydi. Belə olduqda bir millət, iki dövlətin, Türk Tarixinin və Mədəniyyətinin əsl tarixi ortaya çıxardı. Bu da ulu öndərin sözlərinin real həyatda elmi şəkildə təsdiqi olardı.

Heydər Əliyev Fondu tərkibində qədim Azərbaycan musiqi səs sistemi əsasında qədim musiqi alətlərimizdən ibarət orkestr yaratmaqla Azərbaycanın qədim muğamlarının, təsnif və rənglərinin əlimizdə olan materiallar, notlar əsasında real şəkildə, canlı olaraq səsləndirilməsini həyata keçirməklə dünyanı heyrətə gətirmək olardı. Belə orkestrin dünya mədəniyyətində olmadığını nəzərə alsaq belə bir iş Heydər Əliyev Fondunun imicini bir daha yüksəldərək adının dünyanın hər yerində iftixarla çəkilməsini təmin edərdi. İnanırıq ki, YUNESKO kimi təşkilatlar da bu işə öz yardımını göstərəcək. Uzun illər YUNESKO-nun musiqi sənəti üzrə eksperti olan fransız mənşəli Jan Dürinqlə olan söhbətlərimizdə o da təsdiq etmişdir ki, belə bir iş qurmaq olarsa bu dünyaya xüsusi səs salar və YUNESKO da bu işə dəstək ola bilər.

Bu zamana kimi hər cür Böyük Türk və Türk xalqları mədəniyyətinə maneələr göstərən qüvvələr artıq bəzi etirafları etməklə özlərinin məkrli niyyətlərini ortaya qoymuş oldular. Belə etiraflardan yalnız birini göstərmək istərdik. Türkiyədə yayınlanmış “Amerika bankiri Rotşildin etirafı” yazısından bir neçə cümlə ilə fikrimizin zəruriliyini göstərmək istərdim. Rotşild öz etirafında bildirir ki, “Biz çox gözəl bilirdik ki, dünyada ən qədim mədəniyyət Türklərə məxsusdur. Türklər Ari irqinə aiddirlər. Biz, bu faktları gizlədərək yunan mədəniyyətinin ən qədim olmasını ortaya atdıq və bütün mədəniyyətlərin kökünün yunanlara dayandığını yaydıq”. Etirafdan göründüyü kimi siyasi məqsədlərə görə bütün dünya xalqları aldadılmış və bir çox yazılmış tarix və mədəniyyət sahəsindəki əsərlər siyasi məqsədlərin qurbanına çevrilmiş olmuşdur. Azərbaycan elminin nüfuzunu və bu sahədə tanınmış alimlərimizin, musiqiçilərimizin olmağını nəzərə alaraq, “Azərbaycan, Türk Xalqları Mədəniyyəti” Akademiyasının yaradılması həm Azərbaycan tarixinin və mədəniyyətinin, həm də Böyük Türk dünyasının gerçək tarixinin və mədəniyyətinin üzə çıxarılmasında Türk dünyasına əvəzsiz xidmət olardı. Unutmayaq ki, Azərbaycan-Türk musiqi tarixi dünya xalqlarının musiqi mədəniyyəti tarixində ən qədimi və ən zənginidir.

**—Rafiq müəllim, müsahibəyə görə çox sağ olun.**

—Siz də sağ olun, minnətdaram.